## TURAL TURAN

**Tural Mətləb oğlu Mustafayev**

*28 oktyabr 1989-cu ildə ŞƏMKİRin Alabaşlı kəndində doğulub.*
*"Mənə bir az o dünyadan danışın" (2010), "Bələksiz qığılcım" (2015) adlı şeir kitabları gün üzü görüb.*
*2011-ci ildən DGTYB Məclisinin üzvüdür.*
*Hazırda hafta.az saytının reportyorudur.*

### *BİZİM DAXMA PAPAQ QANI GÖTÜRMƏZ*

Bir də bu uşaqla çıxma qarşıma,
enmə üzsüzlüyün qazmaq dibinə.
Ayıbdı, məni də sizə daşıma,
onsuz da ayağım sizə sarıdı.
Yüz evlik barıtlı közə sarıdı...
Mən necə yığışım başı papaqsız,
qapısı ciyiltili gəlin evinə?!.

Bu yorğun günorta, "novat" adamı,
yemək də cəhənnəm, sən də cəhənnəm...
Görməyə qaçıram o uçuq damı -
yenə bir boşqab sən –
"bayat buğlu" bir xörək...
Səni sevməyə gedirəm,
dədən evinə...
Eyvanımıza zillənən zədən evinə...

...Üzüyü lax barmaqlı gəlin,
oymaqların söz çanağı,
uşaq qonaqlı gəlin,
Anasız, öksüz gəlin,
"dənciyi" yüksüz gəlin,
Anamın tikdiyi o güllü yorğan,
nə örtməz,

nə üşütməz, yanı küçüklü gəlini.
Apardığı cehizindən ağır yüklü gəlini...

İki adamlıqdı,
dörd nəfərlik deyil o,
bircə mənim bədənimə dəyib o...

Bizim daxma papaq qanı götürməz,
bu bıçağı paslı qın da kiritməz.
Uzaq eylə komamızdan yelini...
bir də bu uşaqla çıxma qarşıma;
Papağım bir ölçü boşdu başıma...

### *BƏZƏN QIRAT KİMİ GÖZ İŞIĞI DÜŞMƏYƏN TÖVLƏYƏ BAĞLANMAQ İSTƏRSƏN...*

Saçların misra-misra ağarırmı yenə?
Bətnində boş qəbir,
Yataq otağında sinədaşsız beşiyi görüncə...
Üşüyürsənmi bu axşam da,
Bir qarabuğdayı kişi,
Bir sarışın qızcığazı geyirsənmi əyninə?!

Otağının soyuq gələn, dişlərini qıcırdadan yerlərinə
Bir ehtiraslıq ağ-qara şəkilləri hörüncə –
və yaxud bir şəkil belə tapmayıb,
      o deşiklərdən özünü asınca?..
Söndür gözlərindəki bir cüt işığı,
Arxa çevir, ömür alan ilğımlara...
Bir az qımış, bir az işılda, bir az isin...
Qış sonunda qəfil doğan sazaqlı Günəş kimi...
Sən qadınsan axı,
bəzən Qırat kimi
göz işığı düşməyən qaranlıq bir tövləyə
                              bağlanmaq istərsən,

uçmaq üçün əclaflıqlardan
xəyalların sənə təslim olduğu yüksəyə...
Udqunarsan, udqunarsan, üşüyərsən...
Bir də... "keçəl və qırmızısaqqal bir xədim kişi olsa"
deyə düşünərsən.
Səni bu qırx gün ərzində bəsləməyə...

Sənə baxa bilərəm, əgər istəsən –
təki, uç buradan.
...Mən kişiyəm, alçaqların öldürdüyü,
...23 yaşında sarışın kənd qızının "axtaladığı"
kipkirli bir Tanrıköy uşağı...
Sənsə, qadınsan, uğurlu bir misrada
Heca-heca ölən, əriyən...
Bir çay qaşığında
sarıyla qaranın nəmlənmiş qarışığı...

Söndür, söndür gözlərində işığı,
...Get,
ilim ayağı it bu səhralardan,
Özünü qarabuğdayı bir nəfəsləcə
mumyala...